**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**DİLQƏM QASIM OĞLU QULİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASINDA MÜSTƏQİLLİK DÖVRÜNDƏ BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ (1991-2015-ci illər)

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçilər:** **Cəbrayılov İntiqam Hilal oğlu,**
pedaqogika üzrə elmlər doktoru

**Mahmudov Müdafiə Cəmil oğlu,**
pedaqogika üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev,**
pedaqogika üzrə elmlər doktoru,
professor, Əməkdar müəllim

**İsmayıl İsrafil oğlu Əliyev,**
pedaqogika üzrə elmlər doktoru, professor

**Piralı Behbudalı oğlu Əliyev,**
pedaqogika üzrə elmlər doktoru,
professor, Əməkdar müəllim

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universitetinin**
**Pedaqogika və psixologiya kafedrası**

Müdafiə “7” noyabr 2017-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki BD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat “___ ” oktyabr 2017-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi:** **Rövşən Zülfüqar oğlu Hümbətəliyev**
**riyaziyyat üzrə elmlər doktoru, dosent**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Ölkəmiz müstəqilliyə qədəm qoyduğu gündən bədən tərbiyəsi və idman sahəsində bir sıra qanunlar, fərmanlar və dövlət əhəmiyyətli qərarların həyata keçirilməsi öz həllini tapmağa başladı. Belə ki, Ulu öndər Heydər Əliyevin 26 iyul 1994-cü il tarixli 861 saylı Fərmanına əsasən Gənclər və İdman Nazirliyi yaradıldı,[1] habelə 5 mart 1995-ci ildə Azərbaycan Respublikasında idman fondu təsis edildi.[2] Həmin fərmanla da Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliği və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, gənclərdə bədən tərbiyəsi və idmana marağın artırılması, habelə Azərbaycan idmanının beynəlxalq arenaya çıxarılmasına real zəmin yaradılmış oldu.

14 avqust 1996-cı il tarixdə Milli Olimpiya Komitəsinin üzvləri ilə görüşdə Ulu öndər Heydər Əliyev demişdir: "Şəxsən mən söz vermişəm və indi də təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz".[3]

İdmana dövlət qayğısının nəticəsi kimi ilk dəfə olaraq "Bədən tərbiyəsi və idman" haqqında 23 dekabr 1997–ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş Qanunu göstərmək olar.[4]

Ümummilli liderimiz Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı”[5] respublikamızda müasir tələblərə uyğun təhsil sisteminin yaradılması ilə bərabər, həm də ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı perspektivlərin müəyyənləşdirilməsini qarşıya qoydu. Bununla bərabər bədən tərbiyəsi və idman ixtisas fənlərinin məzmununun müasir tələblərə uyğun şəkildə yeniləşməsini tələb etdi.

---

[1] Azərbaycan Respublikası Prezidentinin Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Fərmanı. “Azərbaycan” qəz., Bakı, 1994, 27 iyul.

[2] Azərbaycan Respublikası Prezidentinin “İdman Fondu”nun yaradılması haqqında Fərmanı. “Azərbaycan” qəz., 1997, 24 dekabr.

[3] Quliyev D.Q. Azərbaycan idmançıları Olimpiya oyunlarında (1952-2008). Bakı: Təknur, 2008, s. 147.

[4] Azərbaycan Respublikası Prezidentinin “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Fərmanı. “Azərbaycan” qəz., 1999, 5 yanvar.

[5] Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı". “Azərbaycan” qəz., Bakı, 1999, 17 iyul.

3 fevral 2000-ci il tarixdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 255 saylı Sərəncamına əsasən "Bədən Tərbiyəsi və İdmanın inkişafının dövlət proqramı" təsdiq edilmişdir.[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 mart 2005-ci il tarixdə "Bədən Tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında Sərəncamı mühüm hadisə kimi qiymətləndirildi. Bu gün respublikada bədən tərbiyəsi və idmanın inkişafı əsasən kütləvi bədən tərbiyəsi və sağlamlıq idman ustalığı üzrə aparılmaqdadır.[2]

Prezident İlham Əliyevin 4 mart 2005-ci ildə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının,[3] 10 oktyabr 2005-ci ildə Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı,[4] 16 yanvar 2012-ci il Azərbaycan Respublikasında "İdman ili" elan edilməsi haqqında Sərəncamı ölkəmizdə bütün idman ictimaiyyətinə verilən yüksək qiymətin təzahürü oldu.

Bədən tərbiyəsi və idmanın tərbiyə sisteminin düzgün, elmi əsaslar üzərində qurulması, bu mühüm ictimai fəaliyyət sahəsində yeni forma və metodların tətbiq edilməsi, səmərəli elmi-pedaqoji, metodik axtarışlar aparılması, son nəticədə gənc nəslin sağlam, gümrah, fiziki cəhətdən möhkəm böyüməsi cəmiyyətimizin gələcək inkişafını təmin etmək, ölkənin müdafiə qüdrətini möhkəmləndirmək deməkdir. Bu mənada ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində qəbul edilən qərar və sərəncamların, habelə yaradılan proqramların və görülən işlərin, eyni zamanda qazanılan uğurların elmi-pedaqoji əsaslarını geniş şəkildə araşdırmaq və nəticələrini qiymətləndirmək mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Müstəqillik dövründə Azərbaycanda bədən tərbiyəsi və idmanın əsas inkişaf istiqamətləri haqqında respublikamızda bir çox dəyərli tədqiqatlar aparılmış, elmi məqalə və əsərlər yazılmışdır. Tədqiqatda Azərbaycanda və xarici ölkələrdə bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı elmi araşdırmalar aparmış pedaqoqların ideya istiqamətləri qədərincə öyrənilmişdir. (E.M.Şelkunova,

---

[1] Azərbaycan Respublikasının Nazirlər Kabineti. Sərəncam. № 25. Bakı: 2000, 3 fevral, 10 s.

[2] Azərbaycan Respublikasında Bədən Tərbiyəsi və idman gününün təsis edilməsi haqqında Sərəncam. "Azərbaycan" qəz., Bakı, 2005, 5 mart.

[3] Mehdiyev Q.S. Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər (1994-2008). Bakı: Avropa, 2008, 251 s.

[4] Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı. «Respublika» qəz., 2005, 10 oktyabr.

F.A.Kazıyev, D.A.Kralman, V.A.Apekov, O.İ.Vovk, A.V.Levçenko, İ.Mirenenko, V.V.Mexrikadze, Y.Y.Kuşnikov, S.İ.Vovk, M.İ.Aslanlı, E.T.Rəhimov, M.Ə.İskəndərov, K.T.Rzayev, E.F.Acalov, K.A.Kəbirlinski, P.M.Rəhimov, O.M.Mirzəyev, A.Ə.Əmiraslanov, Ə.E.Mehdiyev, H.N.Məmmədov, Z.M.Məmmədov, S.A.Əliyeva, R.Z.Əliyev, B.S.Quliyev, N.Ə.Sultanov, B.Ə.Nərimanov, A.Ə.Əliyev, F.P.Məmmədov, M.Q.Həsənov, S.A.Bağırova, E.X.Mamedova, A.B.Nərimanov, İ.M.Əliyev, B.A.Qadırov, X.K.Qurbanov, Ə.M.Xəlfəyev, İ.S.İsmayılov, F.A.Hüseynov, N.B.Məcidov, S.Ə.Hacıyev, H.A.Cəfərov, Z.A.Həsənova, M.Ə.Nəsrullayev, Q.M.Cəfərov, Y.M.Səmədov, N.T.Quliyev, F.Z.Məmmədov, A.Y.Əsgərov, Ə.X.Ramazanov, R.Q.Babayev, R.Ş.Əbdürəhmanov, R.Z.Rzayev, B.Ə.Cabbarlı, Ş.H.Əbdürəhmanov və s). Tədqiqatla bağlı araşdırmalar göstərir ki, adı çəkilən tədqiqatçıların əsərlərində problemə müxtəlif yönlərdən yanaşılmışdır. Bizim apardığımız tədqiqat işi onların heç birini təkrar etmir, əksinə aparılmış tədqiqat işlərini daha da zənginləşdirir. Problemlə əlaqədar tədqiqatçılar öz dissertasiylarında bədən tərbiyəsi və idmanın inkişaf tarixinin müxtəlif dövrələrini araşdırmış və müəyyən idman növünün tarixini tədqiq etmişlər.

Bu baxımdan Azərbaycanda, eləcə də SSRİ dövründə bədən tərbiyəsi və idmanın inkişafı tarixi üzrə E.T.Rəhimovun "Azərbaycanda milli güləşin inkişafı" (1948-ci ildə), M.Ə. İskəndərovun "Azərbaycan SSRİ-də idmanın inkişafı tarixindən" (1946-1960-cı illər), K.T.Rzayevin "Azərbaycan SSR-də bədən tərbiyəsi və idmanın inkişafı" (1917-1937-ci illər), E.F.Acalovun "Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı" (1960-1980-cı illər), S.A.Əliyevanın "Azərbaycan SSR-də qadınlar arasında bədən tərbiyəsi və idmanın tarixi" (1959-1969-cu illər), H.N.Məmmədovun "Azərbaycan SSR-də ümumtəhsil məktəblərində fiziki tərbiyənin inkişaf tarixi", N.T.Quliyev isə "Azərbaycan Respublikası Təhsil sistemində fiziki tərbiyə və idman işlərinin yenidən qurulmasının əsas istiqamətləri" mövzularını araşdırmışdır ki, bu problem də bədən tərbiyəsi və idmanın inkişafı ilə sıx bağlıdır. Lakin bu tədqiqatların əksəriyyəti ümumtəhsil məktəblərini əhatə etmişdir. Belə ki, B.S.Quliyevin "Fiziki tərbiyə üzrə nəzəri məlumatların mənimsənilməsinin şagird şəxsiyyətinə təsiri (Azərbaycan məktəbi ibtidai siniflərinin materialları əsasında)" mövzusunda namizədlik dissertasiyası diqqəti cəlb edir. Dissertasiyada fiziki tərbiyənin mahiyyəti açıqlanmış, məktəb təcrübəsi təhlil edilmiş, bədən tərbiyəsinin təlimi prosesində vətənpərvərlik tərbiyəsinə yiyələnmənin forma və vasitələri müəyyənləşdirilmişdir.

İ.M.Əliyev "Ümumtəhsil məktəblərində sinifdənxaric tədbirlər vasi-

təsilə bədən tərbiyəsi və idman işlərinin təşkilinin nəzəri və praktik əsasları (V-IX siniflərin materialları əsasında)" adlı namizədlik dissertasiyasında bədən tərbiyəsi dərslərində və sinifdənxaric tədbirlərdə şagirdlərin hərəkətləri müstəqil icra etməsini, bunların mahiyyətini, təsnifatını, məzmununu müəyyənləşdirmişdir. Tədqiqatda bilikləri möhkəmləndirmək və təkmilləşdirmək üçün müəllimlər və məktəb rəhbərlərinə dəyərli tövsiyələr vermişdir.

R.Q.Babayevin namizədlik dissertasiyası isə fiziki tərbiyə fənninin tədris proesesində yeniyetmələrin milli-mənəvi tərbiyəsi üzrə işin imkanları və yollarına həsr olunmuşdur. Tədqiqatda göstərilir ki, məktəblərdə tədris olunan bədən tərbiyəsi dərslərinin təşkili xüsusiyyətlərini hərtərəfli tədqiq etmək və hər bir idman növünün öyrədilməsi prosesinin səmərəliliyini müəyyənləşdirmək tələb olunur. Belə ki, proqramın hər bir bölməsi üzrə mövzunu səmərəli həyata keçirmək üçün nəinki aşağı siniflərdə, habelə bu istiqamətdə bütün siniflərdə fundamental tədqiqatlar aparılmalıdır.

Tədqiqatlarla tanışlıq göstərir ki, A.Ə.Əliyev "Fiziki tərbiyə üzrə dərsdənkənar tədbirlərdə texniki-peşə məktəb şagirdlərinin ictimai fəaliyyətinin formalaşdırılması", M.Ə.Nəsrullayev "Bədən tərbiyəsi və ibtidai hərbi hazırlıq məşğələlərində yuxarı sinif şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması", A.Y.Əsgərov "Bədən tərbiyəsi müəllimlərinin və məşqçilərin pedaqoji ustalığının təkmilləşdirilməsi yolları"nı tədqiq etmişlər. Həmin dissertasiyalarda yalnız ümumtəhsil müəssisələrində aparılan bədən tərbiyəsi və idman işləri tədqiqata cəlb edildiyindən bu sahədə respublika miqyasında görülən işlərə toxunulmamışdır.

Mövzu müxtəlif dövrlərdə bu və ya digər şəkildə təkcə indiki Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında birləşən respublikalarda deyil, eləcə də dünyanın inkişaf etmiş ölkələrinin bir sıra alimləri tərəfindən tədqiqata cəlb olunmuşdur.[1]

Müstəqillik dövründə və ondan əvvəlki illərdə yalnız və yalnız bir doktorluq dissertasiyası işi (M.İ.Aslanlı: "Azərbaycan ədəbiyyatında fiziki

---

[1] История физической культуры и спорта. Учебник / Под общ. ред. В.В.Столбова. М.: Физкультура и спорт, 1975, 359 с.; Ашмарин Б.А. Теория и методика педагогических исследований в физическом воспитании. М: Физкультура и спорт, 1978, 224 с.; Физическое воспитание. Учебник / Под общ. ред. В.А.Головина, В.А.Maслякова, А.В.Коробкова и др. М.: Высш. Школа, 1983, 391 с.; Спорт и образ жизни. Ст. статей. / Сост. В.И.Столяров, З.Кравчук. М.: Физкультура и спорт, 1979. 278 с.; Спорт в современном обществе. Ст. статей. / Под общ. ред. В.М.Выдрина. М.: Физкультура и спорт, 1980, 272 с.

tərbiyə problemləri”) müdafiə olunmuşdur ki, bu tədqiqat işi də tarixi aspektdə yazılmış, istər folklor yaradıcılığımızda, istər dini-mənəvi dəyərlərimizdə müxtəlif dövr ədəbiyyatımızda fiziki tərbiyə və idman məsələləri araşdırılmışdır. Bu tədqiqatların təhlili göstərir ki, Azərbaycanda müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixi kompleks halında tədqiqata cəlb edilməmiş, müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf istiqamətləri yetərincə öyrənilməmişdir. Lakin son illər bu sahədə respublikamızda bır sıra möhtəşəm işlər həyata keçirilmişdir. Bu baxımdan tədqiq etdiyimiz problem – "Azərbaycan Respublikasında müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf istiqamətləri (1991-2015-ci illər)" mövzusunda dissertasiya ilk dəfə olaraq kompleks şəkildə öyrənilir.

İşin xronoloji çərçivəsi iyirmi dörd ili (1991-2015) əhatə edir. Bu illərdə respublikanın inkişafı üçün iqtisadi, sosial-siyasi, mədəni və s. sahələrində müvəffəqiyyətlər qazanılmışdır. Müstəqillik dövrü Azərbaycan Respublikasının mühüm və şanlı tarixi dövrüdür. Bu ölkənin sosial tərəqqisinin yeni bir inkişaf mərhələsidir ki, onun da bir tərkib hissəsi bədən tərbiyəsi və idmandır. Bu cəhətdən tədqiqat işimiz aktuallıq kəsb edir.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi dövründə bədən tərbiyəsi və idmanın inkişaf tendensiyasıdır.

**Tədqiqatın predmeti** Azərbaycan Respublikasında müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf mənbələri, əsas istiqamətləri və onların xüsusiyyətləri, təhsilin bütün pillələrində bədən tərbiyəsi və idmanın inkişaf tarixinin araşdırılmasıdır.

**Tədqiqatın məqsədi** Azərbaycan Respublikasında müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixinin 1991-2015-ci il dövrlərini öyrənmək, ümumiləşdirmək, əsas inkişaf dövrlərinin səciyyəvi xüsusiyyətlərini göstərməkdir.

Tədqiqat işimizdə müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixi göstərilən dövrlə məhdudlaşmamış, həmçinin araşdırmalarımız müasir günlərimizə qədər davam etdirilmişdir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulan məqsəddən irəli gələrək aşağıda göstərilən bir sıra kompleks vəzifələr həyata keçirilmişdir:

- Azərbaycanın müstəqilliyi dövründə bədən tərbiyəsi və idmanın inkişafına dair ədəbiyyatı, müxtəlif sənədləri, qərar və qətnamələri öyrənib təhlil etmək, nəticələr çıxarmaq;

- müstəqillik dövründə bədən tərbiyəsi və idmanın mövcud vəziyyətini öyrənmək və təhlil etmək;

- müstəqillik dövründə bədən tərbiyəsi və idmanın tədris və təhsil müəssisələrində vəziyyətini öyrənmək;

- müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixində dövriyyələşməni müəyyənləşdirmək (1991-1993; 1993-2002; 2003-2015);

- elmdə bədən tərbiyəsi və idman tarixinin yerini müəyyənləşdirmək və bir-biri ilə təmasda olan, qonşu elmlərin qarşılığını xarakterizə etmək;

- müstəqillik dövründə bədən tərbiyəsi və idmanın müxtəlif sahələri üzrə inkişaf mərhələlərini, xüsusiyyətlərini və inkişaf dinamikasını müəyyənləşdirmək;

- müstəqillik dövründə bədən tərbiyəsi və idman tarixi üzrə tədqiqatların metodoloji səviyyəsini təhlil etmək və onun genişlənmə, yüksəliş və eniş səbəblərini aydınlaşdırmaq;

- 1991-2015-ci illər ərzində bədən tərbiyəsi və idmanın əsas istiqamətlərini aşkar etmək;

- müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixində təkamülü izləmək və öyrənilən dövrün bədən tərbiyəsi və idmanın forma və metodlarını araşdırmaq;

**Tədqiqatın fərziyyəsi.** Dövlətin diqqət və qayğısı sayəsində bədən tərbiyəsi və idmanın strategiyası üzrə fəaliyyət prinsipləri düzgün müəyyənləşdirilərsə, müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixində əsas istiqamətlər öyrənilərsə və bu inkişaf tendensiyasında uğurlar diqqətlə araşdırılarsa, səbəblər təhlil edilib nəticələr çıxarılarsa təbii olaraq ölkədə bədən tərbiyəsi və idmanın sürətli inkişafına nail ola bilərik.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını keçmiş mədəni, tarixi irsə münasibət haqqında mütəfəkkirlərin, görkəmli pedaqoqların fikirləri, Azərbaycan hökumətinin bədən tərbiyəsi və idmanla bağlı qərarlar, sərəncamlar, fakt, hadisə və proseslərin obyektivlik və tarixilik prinsipi əsasında öyrənilməsi haqqında nəzəri müddəalar, Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu, Təhsil strategiyası və təhsil islahatları təşkil edir.

**Tədqiqatın metodları.** Tarixi-müqayisəli təhlil, müşahidə, müsahibə, anketləşdirmə, testləşdirmə, təhlil və tərkib, riyazi statistik metodlar, nəzəri-tarixi müqayisəli təhlil, arxiv axtarışı.

**Tədqiqatın mənbələri.** Problem işlənərkən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) tədris planı və proqramlarından, mövzu ilə əlaqədar rəsmi dövlət sənədlərindən, beynəlxalq və respublika elmi konfranslarının materiallarından, arxiv materiallarından, Rusiya, Türkiyə, İran, ABŞ, Almaniya, Çin və b. ölkələrdə nəşr

olunmuş vəsaitlərdən, internet materiallarından, pedaqogika dərslik və dərs vəsaitlərindən, pedaqoji fikir və idman tarixinə dair ədəbiyyatdan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanda müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tendensiyası elmi şəkildə araşdırılmış, onun müxtəlif tarixi dövrlərdə məzmunu müəyyənləşdirilmiş və yeni modelinin forma və metodlar kompleksi yaradılmışdır.

İlk dəfə olaraq müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixi mərhələlər üzrə sistemli və kompleks şəkildə öyrənilmiş və ümumiləşdirilmişdir.

**Müdafiəyə çıxarılan başlıca müddəalar:**

- bədən tərbiyəsi və idmanın inkişaf tarixinin elmlər sistemində öz layiqli yeri və töhfəsi vardır;
- müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixinin təhlilindən çıxarılan təklif və nəticələr, onun inkişafının gələcək perspektivlərinə böyük təsir göstərir;
- bədən tərbiyəsi və idman tarixinin öyrənilməsinin tələbə və şagirdlərin ümumi inkişafına və mənəvi-əxlaqi tərbiyəsinə təsiri;
- bədən tərbiyəsi və idmanın inkişaf tarixinin öyrənilməsi yüksək dərəcəli idmançıların hazırlanmasının yeni forma, vasitə və yolları;
- dövlətin diqqət və qayğısı sayəsində bədən tərbiyəsi və idmanın inkişaf strategiyası üzrə fəaliyyət prinsipləri düzgün müəyyənləşdirilir;
- Azərbaycanda idman qurğuları, kompleksləri, klubları, idman cəmiyyətləri və kütləvi bədən tərbiyəsi və idmanın inkişafı ölkədə gənc nəslin sağlam ruhda tərbiyə olunmasına təsir edir;
- bədən tərbiyəsi və idmanın inkişafı, yüksək səviyyəli idmançılar hazırlanması üzrə aparılan elmi-tədqiqat işlərinin genişləndirilməsini şərtləndirir;
- qızlar və qadınların bədən tərbiyəsi və idmanla məşğulluğa daha çox cəlb olunması üzrə fəaliyyətin yaxşılaşdırılması və məşğul ola bildikləri idman növlərinin sayının artırılması onların sağlam həyat tərzinin formalaşmasına təsiri;
- təhsil müəssisələrində və yaşayış yerlərində bədən tərbiyəsi və idmanın infrastrukturunun inkişaf etdirilməsi gənc nəslin sağlamlığına təsiri;
- ölkədə bədən tərbiyəsi və idman hərəkatının idarə olunması prosesinin təkmilləşdirilməsi, idman yönümlü qurumların sayının artırılması, bələdiyyələrin, yerli və regional qeyri-hökumət orqanlarının bu sahə üzrə fəaliyyətinin canlandırılması;

- ölkədə bədən tərbiyəsi və idman növləri üzrə yüksək ixtisaslı idmançıların elmi-metodiki cəhətdən (tibbi-bioloji, texniki-taktiki, pedaqoji-psixoloji) hazırlıqları;

- Azərbaycan Respublikası Prezidentinin bədən tərbiyəsi və idmana diqqət və qayğısı hökumətin dəstəkləyici və icraedici amillərdən olması inkişafın başlıca istiqaməti kimi qiymətləndirilir və bu da ölkə əhalisinin əksəriyyətinin bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsi üçün daha əlverişli şəraitin yaradılmasına imkan verir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixində bədən tərbiyəsi və idman üzrə ixtisasların və daha yeni ixtisasların müasir tələblərə uyğun reallaşmasına imkan yaranır, bədən tərbiyəsi və idmanın müasir elmi biliklər sistemində yeri, quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri təcrübi elm kimi müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixinin bütün sahələrinə aid edilir. Bu baxımdan tədqiqat materialları nəinki pedaqoji fikir və idman tarixini yeni materiallarla zənginləşdirir, həmçinin bu sahədə olan tədris və metodiki işə müsbət təsir göstərir.

Tədqiqat materiallarından və nəticələrindən bədən tərbiyəsi və idman akademiyasında, liseylərdə, ali təhsil ocaqlarının bədən tərbiyəsi fakültələrində təhsil alan tələbələr üçün, orta məktəb müəllimləri, habelə müəllimlərin ixtisasartırma kurslarında pedaqoji fikir tarixi, bədən tərbiyəsi və idman tarixi, sosiologiya fənlərindən mühazirə kursu kimi də istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın müddəaları, respublika səviyyəli elmi-nəzəri və elmi-praktik konfranslarda (1991-2015-ci illər), beynəlxalq konfranslarda (1991, 1997, 2005, 2009, 2010, 2012, 2013, 2014, 2015-ci illər), bədən tərbiyəsi və idmanın tarixi və idarə edilməsi, bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası kafedralarında, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin fənn komissiyası şurasında müzakirə edilmiş, müxtəlif tövsiyələr irəli sürülmüş, bir sıra elmi jurnallarda və dövlət mətbu orqanlarında öz əksini tapmışdır.

**Mövzu üzrə çap olunmuş əsərlər.** Dissertasiyanın mövzusu üzrə 360-dan yuxarı elmi əsər (6 dərslik, 22 kitab, 19 monoqrafiya, 14 dərs vəsaiti, 1 proqram, 31 metodik vəsait, 17 metodik göstəriş, 13 tədris vəsaiti, 3 metodik tövsiyə, 137 jurnal məqalələri (31-i xarici ölkədə), 135 tezis (26-sı xarici ölkədə), orta ümumtəhsil məktəbinin dərsliklərində 5 məqalə nəşr edilmişdir. "Müasir cəmiyyətdə idman" mövzusunda Ümumdünya konqresində, Ümumittifaq elmi konfrans və simpoziumlarda

məruzələr edilmişdir. Onlardan 57-i Tallin, Moskva, Almaniya, Yunanıstan, Bolqarıstan, Polşa, Tütkiyə, İran, Qazaxıstan, Pyatiqorsk, Nalçik, Özbəkistan, Ukrayna, WALIA, MAGNT və mətbu orqanlarda çap olunmuşdur.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi normativ-hüquqi sənədlər və s. hazırlayarkən dissertasiyanın materiallarından istifadə olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya 265 kompyuter mətni səhifəsində tərtib olunub, girişdən, 16 yarımfəsli özündə birləşdirən dörd fəsildən, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İllüstrativ material 37 cədvəl, 21 diaqram və 5 qrafikdən ibarətdir. Ədəbiyyat siyahısı 143-ü Azərbaycan, 100-ü rus, ingilis, fransız, yunan, türk, qazax, özbək və fars dillərində olan 243 mənbəni əhatə edir.

## Dissertasiyanın əsas məzmunu

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələri, fərziyyəsi, metodoloji əsası və metodları müəyyənləşdirilir, elmi yenilikləri və müdafiəyə çıxarılan müddəaları, nəzəri və praktik əhəmiyyəti, tətbiqi və aprobasiyası şərh olunur.

**"Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı pedaqoji problem kimi"** adlanan 4 yarımfəsildən ibarət **I fəsildə** müstəqillik dövründə Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi probleminin mahiyyəti, problemin məqsəd və vəzifələri, işlənmə səviyyəsi və onun təhlili, ölkəmizdə idmanın inkişaf etdirilməsi işinin vəziyyəti, Azərbaycanın müstəqillik dövrünə qədərki bədən tərbiyəsi və idmanın vəziyyətinin təhlili ayrı-ayrı yarımfəsillər şəklində verilir. Bu fəsildə eyni zamanda müstəqillik dövründə bədən tərbiyəsi və idmanın tarixi məsələləri işıqlandırılır.

Bu fəsil müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixinin məqsəd və vəzifələrinin açıqlanmasına, pedaqoji şərtlərinə yönəldilmişdir. Bədən tərbiyəsi və idmanın məqsədi gənc nəsli əməyə və vətənin müdafiəsinə hazırlamaqdır. Bu məqsədlə, bədən tərbiyəsinin aşağıda göstərilən konkret vəzifələrini həll etmək mümkündür:

a) bədən tərbiyəsi və idmanla məşğul olanların sağlamlığını möhkəmlətmək;

b) onların fiziki cəhətdən normal inkişaf etməsini təmin etmək, güc, sürət, dözümlülük, çeviklik keyfiyyətlərini tərbiyə etmək;

c) onlara düzgün və dürüst biliklər vermək: həm ümumi, təbii hərə-

kətləri (yerimək, qaçmaq, alət tullamaq və sair), həm də bədən tərbiyəsinin xüsusi hərəkətlərini etmək (idmanın müxtəlif növləri, hərəkətli oyunlar, xüsusi gimnastika), bacarıq və vərdişləri yaratmaq;

ç) idmançılarda mənəvi və iradi keyfiyyətləri inkişaf etdirmək: vətənpərvərlik, beynəlmiləlçilik, mərdlik, təşəbbüskarlıq, inadkarlıq, cəsarətlilik, qətiyyətlilik tərbiyə etmək.

Üçüncü yarımfəsildə müstəqil Azərbaycan Respublikasında idmanın inkişafı, Olimpiya hərəkatının geniş vüsət alması, ölkənin ümumi inkişafı işıqlandırılır.

18 oktyabr 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edənlər respublikada siyasi sabitlik yarada bilmədilər. Həm bu, həm də ölkənin müharibəyə cəlb olunması, onun torpaqlarının işğal edilməsi respublika idmanını xeyli geriyə atdı, onun irəli getməsinə kəskin şəkildə maneçilik törətdi. 1990-1993-cü illərdə idmanımız ətalət məngənəsində idi, başlı-başına buraxılmışdı. Bir çox idman bazaları baxımsızlıq üzündən yararsız vəziyyətə düşmüşdü, onlardan təyinatı üzrə istifadə olunmurdu, idman avadanlıq və ləvazimatları dağıdılırdı.

Ulu öndər Heydər Əliyev Gənclərin I Forumunda demişdir: "1990-1993-cü illərdə Azərbaycanda bütün idman qurğuları dağıdılmışdı. Azərbaycanın ən böyük stadionu bərbad vəziyyətə salınmışdı. Ayrı-ayrı adamlar orada müxtəlif bazarlar, dükanlar açmışdılar, oranı kababxanaya döndərmişdilər. Bilin, mən bu məsələ ilə tanış olanda Azərbaycanda çox şeylər dağıdılmışdı. Amma Azərbaycanın gəncliyi, idmanı üçün ən vacib olan bu stadionun dağıdılması məni həddindən artıq incitdi".[1]

1993-cü ilin noyabrında Ulu öndər dünya və Avropa miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş Azərbaycan idmançılarını qəbul etdi. Bu görüşdə Heydər Əliyev qeyd etdi ki, idmançılar dövlətin xüsusi qayğısı ilə əhatə olunmalıdırlar. Bu qayğı həm də ölkəmizdə idmanın inkişafına, istedadlı idmançıların potensial imkanlarının açılmasına xidmət etməlidir. İdmanın inkişafı üçün geniş imkanlar yaradılacağını bildirən Heydər Əliyev bu sahənin həm də milli məfkurə, mədəni irs və düşüncə sistemi, ən əsası, oturuşmuş tarixi ənənələr əsasında inkişafını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdi.

Təbii ki, Milli Olimpiya Komitəsinin fəaliyyəti respublika idman

---

[1] İbrahimov N. Müstəqil Azərbaycanın gələcəyi gənclərindir. Bakı: Azərbaycan, 1996, s. 15-25.

ictimaiyyətini, idmançıları qane etmirdi. Bu sahədə köklü dəyişikliklər edilməsi zərurəti yaranmışdı. Milli Olimpiya Komitəsinin 1997-ci il iyulun 31-də keçirilmiş Baş Məclisində yaranmış vəziyyət geniş müzakirə olundu. Baş Məclis Milli Olimpiya Komitəsinin yeni İcraiyyə Komitəsini və prezidentini seçdi.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Olimpiya oyunlarında göstərilən nəticə yalnız dövlətin idman həyatının deyil, onun iqtisadi potensialının, ictimai, sosial-mədəni həyatının göstəricisidir. Olimpiya oyunlarında qazanılan yüksək nəticələr beynəlxalq miqyasda ölkənin imicini qaldırmaqla yanaşı, onun imkanlarını nümayiş etdirir.

Beləliklə, cənab İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız Beynəlxalq Olimpiya Hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə qlobal işlər görüldü.[1]

Dördüncü yarımfəsildə Azərbaycanın müstəqillik dövrünə qədərki bədən tərbiyəsi və idmanın vəziyyəti, faktlar, rəqəmlər ilə qərarların kəmiyyət və keyfiyyət göstəriciləri işıqlandırılır. Tarixi təcrübə və onların baş vermə səbəbləri aşağıdakıları söyləməyə əsas verir:

Respublikanın bədən tərbiyəsi və idmançılarının hazırlığının yaxşılaşdırılması işində respublika fəallarının bədən tərbiyəsi və idmana həsr olunmuş 21 iyun 1974-cü il tarixli yığıncağı həlledici rol oynadı.[2]

Azərbaycan idmançıları SSRİ dövründə dünya və Avropa çempionatlarında 75 medal qazanmışlar (40 qızıl, 19 gümüş, 16 bürünc). Belə ki, dünya çempionatlarında cəmisi 35 medal qazanmışlar (17 qızıl, 11 gümüş, 7 bürünc). Avropa çempionatlarında isə bütövlükdə 40 medal qazanmışlar (23 qızıl, 8 gümüş, 9 bürünc).

Müstəqilliyimiz dövrünə qədər Azərbaycan qadınları Olimpiya, dünya, Avropa çempionatlarında 31 medal qazanmışlar (16 qızıl, 10 gümüş, 5 bürünc).

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin bədən tərbiyəsi və idmana diqqəti və qayğısı nəticəsində 1970-1989-cu illərdə akademiyanın 54 idmançı kadrı Moskva və başqa şəhərlərdə təhsil almış, müxtəlif mövzularda fəlsəfə üzrə doktorluq dissertasiyaları müdafiə etmişdilər.

---

[1] Quliyev D.Q. İdman və Olimpiya hərəkatının inkişafında İlham Əliyevin rolu (1997-2007). Bakı: Nurlan, 2007, s. 9.

[2] Acalov E.F. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi. Bakı: "Maarif", 1985, s. 9-12.

Azərbaycan idmançıları SSRİ yığma komandası tərkibində Yay Olimpiya oyunlarında 27 medal qazanmışlar (10 qızıl, 11 gümüş və 6 bürünc) (1952-1988).

Dissertasiyanın **"Azərbaycanda bədən tərbiyəsi və idmanın yeni sisteminin tətbiq olunmasını şərtləndirən amillər" adlı II fəslinin** məzmununda bədən tərbiyəsi və idman üzrə iş sisteminin modernləşdirilməsi, Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf prioritetləri, ölkəmizdə bədən tərbiyəsi və idmana dövlət qayğısı, bədən tərbiyəsi və idmanın tədrisi və başqa elmlərlə inteqrasiya imkanları geniş şərhini tapır.

Bu fəsildə Azərbaycan Respublikasının müstəqillik tarixi, müstəqilliyimiz dövründə bədən tərbiyəsinin inkişafı, son iyirmi dörd il ərzində dövlətin idmana göstərdiyi ardıcıl diqqət və qayğısı, beynəlxalq bədən tərbiyəsi və idman qurumlarında Azərbaycan Respublikası nümayəndələrinin iştirakı, idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları nailiyyətlər, 1991-2014-cü illərdə Avropa, dünya kuboku və Olimpiya yarışlarının qızıl, gümüş və bürünc mükafatçıları ətraflı təhlil olunur və sübut edilir ki, Azərbaycan xalqının idmançıları hələ keçən əsrlərdə də fiziki hazırlıq və idman oyunları sahəsində dünyada məşhur olmuşlar.

1991-1993-cü illərdə ixtisaslı bədən tərbiyəsi müəllimlərinin tərkibi də qənaətbəxş deyildi. Ali təhsilli bədən tərbiyəsi müəllimləri təxminən 50 faiz təşkil edirdi. Qırx beş faiz orta ixtisas təhsilli idi. Bədən tərbiyəsi müəllimlərinin beş faizinin isə ixtisas təhsili yox idi.[1]

1993-cü il sentyabrın 23-də toplantıda müstəqillik qazanmış on səkkiz ölkənin MOK-un və BOK tərəfindən tanınması məsələsinə də baxılmışdı. Sessiyanın qərarına əsasən, BOK 18 ölkənin, o cümlədən Azərbaycan Respublikasının MOK-unu rəsmən tanımışdır. Azərbaycan Respublikası MOK-un nümayəndələri qitə Olimpiya təşkilatının tədbirində ilk dəfə iştirak etmişdir. Həmin ilin oktyabr ayında Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında Azərbaycan MOK da təmsil olunmuşdur.[2]

Azərbaycan idmançıları 1991-1993-cü illərdə 90 medal qazanmışdır (36 qızıl, 25 gümüş, 29 bürünc).

Azərbaycan idmançıları 1991-ci ildə 29 medal (11 qızıl, 8 gümüş, 10 bürünc), 1992-ci ildə 23 medal qazanmışdısa (11 qızıl, 3 gümüş,

---

[1] Quliyev D. Q. və b. Azərbaycan idmanının dünəni və bu günü. Bakı: Təknur, 2003, s. 22-26.

[2] Quliyev D. Q. Azərbaycan ulduzları Olimpiya oyunlarında. Bakı: İşıq, 1996, s. 13-23.

9 bürünc), 1993-cü ildə isə 38 medal qazanmışdır (14 qızıl, 14 gümüş, 10 bürünc). Təəssüflər olsun ki, dövlət müstəqilliyini əldə etdiyi 1991-1993-cü illərdə Azərbaycanda bədən tərbiyəsi və idman, iqtisadiyyat və digər sahələrdə baş verən hərc-mərclik və dağıdıcılıq siyasəti idmana da olduqca güclü zərbələr vurmuşdu.

İkinci paraqrafda 1993-2003-cü illərdə Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı prioritetləri araşdırılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 avqust 2004-cü il tarixli 181 saylı sərəncamına əsasən «Bədən tərbiyəsi və idmanın inkişafının dövlət proqramı» təsdiq edilmişdir.[2] Proqram 2005-2008-ci illəri əhatə edərək bu sahədə görüləcək işlərin məzmununu və inkişaf yollarını müəyyən etmişdir.

Dünyada tanınmaq beynəlxalq təşkilatlar tərəfindən müstəqil Azərbaycan dövlətinin tanınması haqqında qəbul olunan qərarlardır. Bununla yanaşı, bu həm də dünya dövlətləri ilə Azərbaycan Respublikası arasında yaranan ikitərəfli, bərabərhüquqlu əlaqələrdir».[1]

1994-2003-cü illərdə Azərbaycan idmançılarının Avropa və dünya kuboku yarışlarında 1341 medal qazanmışlar (onlardan 465 qızıl, 362 bürünc, 514 bürünc).

1994-2003-cü illərdə Azərbaycan idmançılarının qeyri-Olimpiya idman növləri üzrə Avropa və dünya kuboku yarışlarında 950 medal qazanmışlar (onlardan 360 qızıl, 241 gümüş, 349 bürünc).

Üçüncü yarımfəsildə Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısı araşdırılır. İdmanın inkişafına göstərilən yüksək dövlət qayğısı nəticəsində Azərbaycan idmançıları dünyanın mötəbər yarışlarında və Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil edir, uğurlarını ildən-ilə daha da artırırlar. 2015-ci ildə Bakıda keçiriləcək birinci Avropa Oyunlarına hazırlıq məqsədilə beynəlxalq standartlara uyğun mühüm layihələrin icra olunması ölkəmizdə müasir idman infrastrukturunun yaradılması işinə böyük töhfə verəcəkdir. Digər tərəfdən, Bakının 2015-ci il Avropa Oyunlarının keçirilməsi üçün böyük potensiala malik olmasını beynəlxalq idman təşkilatları da artıq təsdiqləyib. Bunu şərtləndirən əsas amillər isə ölkəmizin qədim tarixə, zəngin mədəniyyətə, əlverişli coğrafi mövqeyə, güclü idman infrastrukturuna, ən başlıcası beynəlxalq yarışları keçirmək təcrübəsinə malik olmasıdı.

Azərbaycan həqiqi mənada idman dövlətinə, ölkəsinə çevrilmişdir. Azərbaycanda yeni gənc nəsil yetişmişdir və biz yeniyetmələrin hazır-

---

[1] 10 il öncə başlanan yol [Mətn] : Sənədli publisistika /Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəşri. Bakı: 2007, 256 s.

lığına böyük diqqət göstəririk. Əgər yeniyetmə idmanı olmasa, ümumiyyətlə, ölkədə idman inkişaf edə bilməz.

2008-ci ildə Azərbaycan idmançıları Avropa və dünya kuboku yarışlarında 550 medal qazanmışlar. Onlardan 205-i qızıl, 141-i gümüş, 204-ü isə bürüncdür. Bu medallardan 137-si Olimpiya, 423-ü isə qeyri-Olimpiya növlərində əldə edilmişdir. Azərbaycan idmançıları 51 dünya, 73 Avropa və 120 beynəlxalq turnirlərdə iştirak etmişlər. Bütün bunlar ölkədə idmanın sürətli inkişafının göstəriciləri kimi diqqəti cəlb edir.

C.Kennedi demişdir: "Dövlətin nüfuzu iki şeylə ölçülür: kosmik raketlər və Olimpiya qızıl medalları ilə". Arxasız, köməksiz, tapşırıqsız, yalnız öz gücünə Olimpiya fəxri kürsüsünün zirvəsini fəth etməyi bacaran Azərbaycan 2013-cü il fevralın 8-də Kosmos erasına daxil oldusa, ilk telekommunikasiya peykini orbitə çıxardısa, demək bundan belə hamıdan tez, hamıdan yüksəkdə, hamıdan güclü olaraq, təki sülh və əmin-amanlıq, ən başlıcası isə can sağlığı olsun...[1]

Bütün bunlar ilk Avropa Oyunlarını ən yüksək təşkilati səviyyədə keçirmək üçün güclü zəmin yaradır. Buna görə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Bakıda ilk Avropa Oyunlarını lazımi səviyyədə keçirmək məqsədilə Prezident İlham Əliyev Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin İcra Komitəsinin üzvü və YUNESKO-nun xoşməramlı səfiri, birinci xanım Mehriban Əliyevanın sədrliyi ilə iyun-iyul 2015-ci il tarixlərində Bakıda ilk Avropa Oyunlarını keçirmək məqsədilə Təşkilat Komitəsinin yaradılması haqqında fərman imzalamışdır.[2]

2004-2014-cü illərdə Azərbaycan idmançılarının qeyri-Olimpiya idman növləri, Avropa və dünya kuboku yarışlarında 3882 medal qazanmışlar (1456 qızıl, 1178 gümüş, 1248 bürünc).

Paraqrafda dövlətin müstəqil Azərbaycan Respublikasında fiziki cəhətdən daha sağlam, daha güclü, daha kamil və bacarıqlı, müasir qadınların tərbiyəsinə diqqət və qayğısı işıqlandırılmışdır.

Elm və incəsənət sahəsində olduğu kimi, bədən tərbiyəsi və idman

---

[1] Hüseynova S. B. Azərbaycanda idman və Olimpiya hərəkatı: inkişaf tarixi, nəticələr və perspektivlər. ttp: // www. Tehsil problemleri. Com / P = 1829.

[2] İyun-iyul 2015-ci il tarixlərində Bakıda ilk Avropa Oyunlarını keçirmək məqsədilə Təşkilat Komitəsinin yaradılması haqqında fərman imzalamışdır. http://www.mfa.gov.az/content/556.

sahəsində də Azərbaycan qadınları çətin və mürəkkəb bir yol keçiblər. Vaxtilə nadan adamlar azərbaycanlı qadınların səhnəyə çıxmasına, yaxud idmanla məşğul olmasına hər vasitə ilə mane olurdular. Bu maneələri aradan qaldırmaq və bədən tərbiyəsi ilə məşğul olmaq hüququ qazanmaq üçün Azərbaycan qadınlarından böyük qüvvə, iradə və fədakarlıq tələb olunurdu.[1]

Müstəqilliyimiz dövründə (1991-2016) Azərbaycan qadınları Olimpiya, dünya və Avropa çempionatlarında 99 medal qazanmışlar (26 qızıl, 23 gümüş, 50 bürünc).

Tədqiqat göstərir ki, Azərbaycan idmançıları müstəqillik illərində (1991-2015) dünya və Avropa çempionatlarında 573 medal qazanmışdır (171 qızıl, 173 gümüş, 229 bürünc).

Azərbaycan idmançıları 2016-cı ildə Olimpiya, qeyri-Olimpiya, Авропа вя дцнйа кубоку йарышларында 837 medal qazanmışlar (297 qızıl, 250 gümüş, 290 bürünc).

Dördüncü yarımfəsildə qeyd edilir ki, elm və texnikanın sürətli inkişafı, elmlərdə inteqrasiyanın inkişafı orta məktəb kursunun həm məzmununu, həm də onun öyrənilmə metodlarının dəyişilməsini və yeniləşməsini tələb edir. Təhsilin siyasi-nəzəri səviyyəsi cəmiyyətin ictimai tələblərinə və elmi-texniki tərəqqiyə görə təyin edilir. Bu baxımdan fənlərarası əlaqə ən aktual bir pedaqoji problem kimi ortaya çıxır. Bu problem təhsilin məzmunu və strukturu ilə sıx əlaqəlidir. Ona görə də bu öz əksini təlim metodları, formaları və vasitəlarində tapmalıdır. Fənlərarası əlaqə şagirdlərin biliyini sistemə salmağa, real aləm haqqında onlarda tam mənzərə yaratmağa, hadisələrin qarşılıqlı dialektik əlaqəsini formalaşdırmağa kömək edir.[2]

Müəllimin ən böyük xidməti tədris etdiyi fənn vasitəsilə şagirdləri özünə cəlb etməyi bacarması və K.D.Uşinskinin göstərdiyi kimi, bilikləri təkcə onların şüuruna doğru deyil, həm də hisslərinə doğru yönəltməsidir.[3]

Dissertasiyanın **"Azərbaycan idmançılarının Olimpiya oyunlarında iştirakı"** adlanan **üçüncü fəsli** dörd yarımfəsildən ibarətdir. Əvvəlcə Yay Olimpiya oyunlarında Azərbaycan idmançılarının uğurları, yeniyetmələrin I və II Yay Olimpiya oyunlarında Azərbaycan idmançılarının

---

[1] Quliyev D.Q. «Qadın və İdman». Bakı Universitetinin nəşriyyatı. Bakı: 2000, s.128.

[2] Fəlsəfə və sənətşünaslıq: fənlərarası qarşılıqlı təsirin metodologiyası. Beynəlxalq elmi-konfransın tezisləri. Bakı: Təknur, 2010, s.169-170.

[3] Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). Bakı: 2015, № 1, s.186-190.

çıxışları, Qış Olimpiya oyunlarında Azərbaycan idmançılarının iştirakı, Azərbaycan Milli Paralimpiya oyunlarında idmançıların iştirakı və nəticələri araşdırılır.

"Olimpiya hərəkatı, beynəlxalq idman tarixi və bədən tərbiyəsi tarixinin ümumi problemlərinin öyrənilməsi" birinci yarımfəsildə göstərilir ki, 1992-2012-ci illərin sonlarında xarici ölkələrdə bədən tərbiyəsi tarixi məsələləri alimlərimiz tərəfindən necə işıqlandırılmışdır, tədqiqatın nəzəri-metodoloji səviyyəsi necə öyrənilir.

Müstəqilliyimiz dövründə Olimpiya hərəkatı probleminin işlənib hazırlanma səviyyəsi ətraflı təhlil edilmişdir.

Aparılmış tədqiqat onu göstərir ki, keçmiş SSRİ dövründə Azərbaycan idmançıları Yay Olimpiya oyunlarında 9 dəfə iştirak etmiş və 27 medal qazanmışlar. Medal qazalanların 3-ü azərbaycanlı, 24-ü isə milliləşdirilmiş idmançı olmuşdur. Həmin oyunlarda cəmi 43 idmançı təmsil olunmuşdur.

Müstəqilliyimiz dövrüdə isə Azərbaycan idmançıları Yay Olimpiya oyunlarında (1992-2016) 7 dəfə iştirak etmiş, (bir dəfə Müstəqil Dövlətlər Birliyinin yığma komandaları tərkibində 1992) 47 medal qazanmışlar. Bunlardan 9-u qızıl, 12-si gümüş, 26-sı isə bürünc mükafatdır. Həmin oyunlarda ölkəmizi cəmi 250 idmançı təmsil etmişdir. Aparılmış tədqiqat onu göstərir ki, SSRİ dövrünə nisbətən müstəqilliyimiz dövründə idmançılarımız daha çox iştirak etmiş və medal qazanmışlar.

İkinci yarımfəsildə yeniyetmələrin I və II Yay Olimpiya oyunlarında Azərbaycan idmançılarının çıxışları işıqlandırılır.

Sinqapurda Yeniyetmələrin I Yay Olimpiya oyunlarında Azərbaycan 5 idman növündə (ağır atletika, güləş, boks, cüdo, avarçəkmə) 12 nəfərdən ibarət komanda ilə iştirak etmişdir. Nəticədə 3 idman növündə (ağır atletika, güləş, boks) 5 qızıl və 3 gümüş medal qazanaraq komanda hesabında 204 ölkə arasında 11-ci yeri tutmuşdur. Eyni zamanda Azərbaycan iştirakçıların sayına görə ən yaxşı nəticə göstərən 2-ci ölkə olmuş, ümumi hesabda İslam dövlətləri arasında 1-ci, Avropada 6-cı, MDB ölkələri arasında 3-cü yeri tutub.[1]

Üçüncü yarımfəsildə qış Olimpiya oyunlarında Azərbaycan idmançılarının çıxışları işıqlandırılır. Qış İdman Növləri Federasiyası müstəqilliyimiz dövründə, 1992-ci ildə yaradılmış və həmin ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.1993-cü ildən Beynəlxal Federasi-

---

[1]Yeniyetmələrin Yay Olimpiya oyunlarında Azərbaycan idmançılarının çıxışlarının təhlili // Bakı Slavyan Universiteti. Bakı, 2015, № 1, s.186-190.

yanın (BF) üzvüdür.

Həmin fəslin dördüncü yarımfəslində Azərbaycan Milli Paralimpiya oyunlarında idmançılarımızın çıxışları geniş təhlil edilmişdir. Fiziki qüsurlu vətəndaşların idman maraqlarını təmsil edən ictimai qurum 9 fevral 1996-cı ildə təsis olunmuşdur. 1996-cı ildən Beynəlxalq Paralimpiya Komitəsinin (IPC) məşvərətçi, 1999-cu ildən tam hüquqlu üzvüdür. Fəaliyyətinin ən əsas məqsədi dörd ildə bir dəfə Olimpiya oyunları ilə paralel keçirilən (2 həftə sonra) Paralimpiya oyunlarında fiziki qüsurlu idmançılardan ibarət milli komandanın iştirakını təmin etməkdir.

Prezident İlham Əliyev bu barədə deyib: "Azərbaycanda idmanın həm Olimpiya, həm də qeyri-Olimpiya növləri bərabər hüquqa malikdir. Heç bir ayrı-seçkilik yoxdur və bu siyasət Azərbaycanda uzun illərdir aparılır. İstər Olimpiya idman növü ilə, istərsə də qeyri-Olimpiya idman növü ilə məşğul olan idmançılara biz həmişə eyni gözlə baxırıq. Bu, belə də olmalıdır. Çünki hər bir idmançı beynəlxalq yarışlarda Azərbaycanın idman şöhrətini ucaldır".[1]

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin Yay Paralimpiya oyunlarında 38 medal qazanmışlar (9 qızıl, 18 gümüş, 11 bürünc).

Dissertasiyanın **IV fəsli “Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf mərhələləri”** adlanır. Avropa, dünya və Olimpiya oyunlarına hazırlığın aparılması, qarşıya qoyulmuş əsas məqsəd və vəzifələrin həyata keçirilməsi 3 mərhələdə aparılmışdır:

Birinci mərhələdə elmi-metodiki ədəbiyyatlar təhlil edilmiş, statistik material əsasında Avropa, dünya və Olimpiya İdman liseyində idmanın nəzəri və praktiki məsələləri ilə tanışlıq, şagirdlərin məşqçilərinin, liseyin rəhbərinin müsahibəsi keçirilimiş, proqramlar təşkil olunmuşdur.

İkinci mərhələdə Olimpiya Ehtiyat Qüvvələrinin (OEQ) hazırlıq prosesinin quruluşunun faktor təhlili və onun metodunun istifadəsi öyrənilir. OEQ hazırlıq dinamikası və onun gələcək təkmilləşdirmə perspektivi müəyyən edilir.

Üçüncü mərhələdə idmançıların çoxillik hazırlıq prosesinin strukturu təhlil olunur və effektliyinin inkişaf yolları müəyyənləşdirilir.

Həmin fəslin üçüncü və dördüncü yarımfəsillərində müstəqillik dövründə Azərbaycanda idman qurğuları, kompleksləri, klubları, idman cəmiyyətləri və kütləvi bədən tərbiyəsi və idmanın inkişafı araşdırılır.

---

[1] Müstəqil Azərbaycanda Olimpiya hərəkatının inkişaf yolları // II Ümumrespublika Olimpiya konfransı məruzələrin tezisləri. Bakı, 2001, s. 38-43.

Ulu öndər Heydər Əliyev idmanın, bədən tərbiyəsinin inkişafını hər bir sivilizasiyalı xalqın ali ideallarının təcəssümü olmaqla yanaşı, həm də dövlətin beynəlxalq nüfuz və mövqelərinin təntənəsi kimi qiymətləndirirdi. Dahi rəhbər idmanın dövlətimizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində müstəsna rolunu önə çəkərək deyirdi: "İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".[1]

Hazırda Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin təşəbbüsü ilə respublikamızın müxtəlif bölgələrində 50-dən çox Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilib.

Aparılan tədqiqat işi aşağıdakı ümumi və xüsusi **nəticələrə** gəlməyə əsas verir:

1. Bədən tərbiyəsi və idman müstəqilliyimizin ümumi məqsəd və inkişaf mərhələləri ilə qırılmaz surətdə əlaqədədir. Tədqiqatda Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı prosesinin tədqiqi göstərdi ki, konkret tarixi şəraitdən və quruculuq prosesinin obyektiv təhlilindən irəli gələn vəzifələri təyin edən Milli Olimpiya Komitəsi (MOK), Gənclər və İdman Nazirliyi (GİN), idman federasiyaları (IF) və bədən tərbiyəsi təşkilatları işlərinin məzmununu zənginləşdirib, onların fəaliyyətinin forma və metodlarını təkmilləşdirmişdir. Belə qarşılıqlı əlaqə dövlət qanunlarında, Müstəqil Azərbaycan Respublikasının qanunvericilik aktında möhkəmlənmişdir.
